**Əflatun kişinin igid** sonbeşiyi. - // Xalq qəzeti. - 2025. - 23 fevral. - **№ 41**. - S. 8.

Onların həyatı əvvəldən ağır, qarğaşalı olub. Əflatun və Zeynəb İsmayılov-lara çətin həyat şərtlərinə sinə gərərək, ləyaqətlə, halallıqla yaşamaq üçün bir-birinə olan sayğıları güc verib.

Yevlax şəhərində anadan olan övladlarının dünyaya gəlişi maddi durumu çətin olan cütlük üçün yeni problem və qayğılar yaratsa da, heç biri şikayətlənmədi. Kiçik yaşlarından evin iki oğlu – Hüseyn və Veyis də ailəyə kömək etmək üçün fərdi təsərrüfatlarda gücləri çatan işlərdə çalışıb, çöllərdə qoyun-quzu, mal-qara otarıblar.

Hüseyn deyir ki, iki qardaş kiçik yaşlarımızdan çiyin-çiyinə verdik, hər şeyimizi paylaşdıq. Veyisin şəhid olması, ayrılığı məni, bəlkə də, valideynlərimdən daha artıq yandırır. O, mənim arxamdı, köməyimdi, idealımdı, məsləhət yerim idi...

Veyis Əflatun oğlu İsmayılov 1996-cı il fevralın 23-də, soyuq bir qış günü anadan olmuşdu. Tam orta təhsil ala bilməsə də, həyat dərsini mükəmməl ala bilmişdi. Müharibə başlananda könüllü olaraq cəbhəyə yollanan Veyis döyüşlərə manqa komandiri kimi qatılmışdı. Təkcə özünə cavabdeh deyildi, əsgərlərinin də qayğısına qalmaq öhdəliyi vardı.

Müharibənin ilk günlərindən erməni faşistlərinə qarşı haqlı mübarizəmizə qoşulan Veyis imkan tapanda valideynlərilə, qardaşı Hüseynlə telefonla nikbin əhval-ruhiyyədə danışar, özünüzdən muğayat olun, çox yaxında görüşərik deyirmiş. Bir gün sorağını Tərtərdən alırlar. Düşmənin bu istiqamətdə atəşləri ara vermirdi. Hər tərəfdə dağıntı, yaralananlar, həyatını itirənlər vardı. Amma Veyis kimi oğullarımız düşməni susdurub geri çəkilməyə məcbur etmişdilər. Sonra Ağdərə uğrunda qızğın döyüşlərdə iştirak edir Veyis. Ağdərə alınanda sevincinin həddi-hüdudu yoxmuş. Suqovuşan uğrunda gedən gərgin döyüşlərdə o, ayağından yaralanır. Yarası ölümcül deyildi, amma vaxtında qanaxmanın qarşısının alınması lazımdı. Veyis isə buna əhəmiyyət vermir, yaralı və şəhid yoldaşlarını döyüş meydanından çıxarmağa çalışır. Yarasından güclü qan axması onu taqətdən salsa da, xilasetmə işinə ara vermir. Lakin özünü xilas etmək mümkün olmur. 2020-ci il oktyabrın 14-ü Veyisin həyata vida tarixi olur.

Ağır itkini Zeynəb xanım çox çətin keçirir, təsəlli tapa bilmir. Bakıda kirayə qaldıqları otaqlardan birini şəhid üçün ayırıblar. Bu otaqda nə varsa, Veyisə aiddir. Sevdiyi üçrəngli bayraq, geyimlər, digər şəxsi əşyalar və gülümsər çöhrəsinin əbədiləşdiyi şəkillər.

Şəhidin məzarı ailənin istəyi ilə paytaxtın Bakıxanov qəsəbəsindəki Şəhidlər xiyabanında ziyarət məkanına dönüb. Qonum-qonşu, tanış-biliş həmişə Veyisi Əflatun kişinin kiçik oğlu kimi tanıyıb, indisə onu Qarabağın könlündən keçən qəhrəman oğlu kimi tanıyırlar.

Veyis Əflatun oğlu İsmayılov ölümündən sonra “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunub.